# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 260** **Bakı şəhəri, 16 may 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 may tarixli 190 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin strukturu"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 1206 nömrəli Sərəncamının 1.1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 may tarixli 190 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 671 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin strukturu"nun 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1-ci, 2.2-ci, 2.5-ci və 2.6-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.1. Bakı Regional Enerji Təchizatı və Satışı İdarəsi (Bakı) Bakı şəhərinin enerji təchizatı və satışı idarələri və Abşeron Rayon Enerji Təchizatı və Satışı İdarəsi;

2.2. Sumqayıt Regional Enerji Təchizatı və Satışı İdarəsi (Sumqayıt) - Sumqayıt, Xızı, Qobustan rayon elektrik şəbəkələri və Bağlar elektrik şəbəkəsi;

2.5. Aran Regional Enerji Təchizatı və Satışı İdarəsi (İmişli) - İmişli, Beyləqan, Ağcabədi, Ağdam, Ağsu, Kürdəmir, Zərdab və Füzuli rayon elektrik şəbəkələri;

2.6. Mərkəzi-Aran Regional Enerji Təchizatı və Satışı İdarəsi (Mingəçevir) - Mingəçevir, Goranboy, Naftalan, Yevlax, Ağdaş, Ucar, Göyçay, Tərtər və Bərdə rayon elektrik şəbəkələri;".

2. 2.8-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.9-cu və 2.10-cu bəndlər əlavə edilsin:

"2.9. Qarabağ Regional Enerji Təchizatı və Satışı İdarəsi (Şuşa) - Şuşa, Xocavənd, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Cəbrayıl rayon və Xankəndi elektrik şəbəkəsi;

2.10. Xaçmaz Regional Enerji Təchizatı və Satışı İdarəsi (Xaçmaz) - Xaçmaz, Şabran, Quba, Qusar və Siyəzən rayon elektrik şəbəkələri.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 21 may, № 105.- S.9.